*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 20 iyun 2020-ci il | № 37 (2455) | Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır

*İyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında Sammiti keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.*




Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitini giriş sözü ilə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel açdı. Sonra Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen çıxış etdi. Daha sonra Avropa İttifaqına üzv dövlətlərin və Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçıları çıxış etdilər.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel: İndi isə sözü Azərbaycan Prezidenti İlham Əliyevə verirəm. Cənab Prezident, buyurun.

### Prezident İlham Əliyevin çıxışı

- Sağ olun, cənab sədr. Xanımlar və cənablar.

Azərbaycan Şərq Tərəfdaşlığının fəal tərəfdaş ölkəsidir. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Bizim Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığımız mövcuddur. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Biz Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələsindəyik. Mətnin 90 faizi artıq razılaşdırılıb. İki il bundan əvvəl Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında "Tərəfdaşlıq Prioritetləri" sənədi paraflanıb ki, burada hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiqliyi vurğulanır. Ermənistan və Azərbaycan arasında olan münaqişə eyni prinsiplər əsasında həll edilməlidir. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirir. Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

İşğala və humanitar fəlakətə baxmayaraq, Azərbaycan sosial-iqtisadi inkişafda böyük nəticələr əldə edib. Son 16 ildə ümumi daxili məhsulumuz 3 dəfə artıb, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enib. Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Ticarətimizin təqribən 50 faizi üzv dövlətlərin payına düşür. On beş ilə yaxındır ki, Azərbaycan Avropa bazarlarına xam neft nəql edən etibarlı təchizatçıdır. Yaxın zamanda biz Avropa İttifaqının üzv dövlətlərini təbii qazla təchiz etməyə başlayacağıq. Ölkəmiz Azərbaycanı Avropa İttifaqı bazarlarına bağlayacaq 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi olan Cənub Qaz Dəhlizinin tikintisinin təşəbbüskarı olmuş və onu maliyyələşdirmişdir. Cənub Qaz Dəhlizi enerji əməkdaşlığı, enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir.

Koronavirus pandemiyasına qarşı görülmüş tədbirlər bizə vəziyyəti nəzarətdə, itkiləri isə minimum səviyyədə saxlamağa imkan verib. Ümumdünya Səhiyyə Təşkilatı koronavirusla mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırıb. Qoşulmama Hərəkatının 120 üzv ölkəsinin yekdil qərarı ilə 2019-cu ildə təşkilata sədr seçilən Azərbaycan bu il mayın 4-də Hərəkatın COVID-19-a həsr edilmiş onlayn formatda Zirvə görüşünü təşkil etmişdir. Biz Avropa İttifaqı və Afrika İttifaqının həmin tədbirə qoşulmalarını yüksək qiymətləndiririk. Ali nümayəndə cənab Jozep Borelə videomüraciətinə görə təşəkkürümü bildirmək istəyirəm. Ümid edirik ki, bu, Avropa İttifaqı və Qoşulmama Hərəkatı arasında fəal əməkdaşlığın başlanğıcı olacaqdır. Biz, həmçinin BMT Baş Assambleyasının COVID-19-a həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi iclasının keçirilməsini təklif etmişik. Azərbaycan pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırmışdır. Eyni zamanda, ölkəmiz bu günə qədər 29 dövlətə humanitar yardım göstərib və bu işi davam etdirməyi planlaşdırır. Sağ olun.

* * *

Ermənistanın baş naziri Nikol Paşinyan ermənicə replika atır.

Şarl Mişel: Bizə tərcümə gəlmir, Paşinyan.

Nikol Paşinyanın replikası: Üzr istəyirəm, müdaxilə etməliyəm. Bu yaxınlarda Avropa İnsan Hüquqları Məhkəməsi qərar verib ki, Azərbaycan öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirib. Erməni yatarkən balta ilə qətlə yetirmiş və Avropa İttifaqına üzv dövlətin məhkəməsi tərəfindən ömürlük həbs cəzasına məhkum edilmiş Azərbaycan vətəndaşı həmin ölkədən ekstradisiya ediləndən sonra cənab Əliyev tərəfindən əfv olunmuşdur. Bu şəxs Azərbaycanda hər kəs tərəfindən qəhrəman kimi vəsf edilir. Dağlıq Qarabağ erməniləri balta ilə qətlə yetirilməmək üçün özünümüdafiə hüququna malikdir.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır

(Əvvəli 1-ci səhifədə)

Mən üzr istəyirəm, ancaq hesab edirəm ki, Şərq Tərəfdaşlığı platforması zorakılığa təhrik etmək üçün deyildir. Burada tərəfdaşlıq təşviq edilməlidir. Mən Azərbaycan Prezidentini təklif etdiyim konstruktiv məcraya və formulaya qayıtmağı dəvət edirəm ki, bu formulaya əsasən Dağlıq Qarabağ münaqişəsinin həlli Dağlıq Qarabağ, Ermənistan və Azərbaycan xalqları üçün məqbul olmalıdır.

* * *

Sonra Prezident İlham Əliyev yenidən söz alaraq çıxış etdi:

- Çıxışımda dediklərim beynəlxalq təşkilatların qətnamələrinə əsaslanan tarixi həqiqətdir. Birincisi, bu, hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar. Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunub. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim. Burada çıxışımı yekunlaşdırıram.

* * *

Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Ermənistanın baş naziri Nikol Paşinyan növbəti dəfə özünü ifşa etdi. Bunu açıq-aydın sübut edən bir neçə məqamı diqqətinizə çatdırırıq. Birincisi, Ermənistan baş naziri tədbirdəki çıxışı zamanı ingilis dilində kağızdan oxuyarkən beynəlxalq aləmdə qəbul olunmuş "Naqornıy Karabagh" sözünü işlədir. Ermənicə çıxışında isə "Artsax" sözünü işlədir.



Bu, bir daha onu göstərir ki, Ermənistanın baş naziri yalnız daxili auditoriyaya hesablanan çıxışlarında beynəlxalq aləmin tanımadığı "Artsax" ifadəsini işlədir. Paşinyanın Sammitdəki çıxışı həm də Ermənistan baş nazirinin "ingilis dili səviyyəsini" göstərdi. O, əvvəlcədən hazırlanan çıxışını kağızdan ingilis dilində oxusa da, sonra fikirlərini bu dildə ifadə edə bilmədi. Çıxış yolu erməni dilində danışmaq idi. Ermənistanın baş naziri çıxışında koronavirusla mübarizə üçün təcili ehtiyacların ödənilməsi və təsirin azaldılması məqsədilə Avropa İttifaqından 92 milyon avro həcmində yardım aldıqlarını da qeyd etdi. Azərbaycan Prezidenti isə çıxışında vurğuladı ki, ölkəmiz pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar könüllü maliyyə yardımı ayırıb. Eyni zamanda, Azərbaycan 29 dövlətə humanitar yardım göstərib və bu işi davam etdirir. Bu, Azərbaycanla Ermənistan arasında bütün sahələrdə olduğu kimi, iqtisadi sahədə də dərin uçurumun mövcudluğunu nümayiş etdirən tutarlı faktdır. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı koronavirusla mübarizədə nümunə ölkə adlandırır, Azərbaycanın digər ölkələrə yardımını təqdir edir, Ermənistan isə virusla mübarizə üçün sadəcə pul dilənir.

Paşinyan çıxışında daha bir yalana imza atdı. O, Avropa İnsan Hüquqları Məhkəməsinin son qərarını tamamilə saxtalaşdırılmış formada təqdim edərək bu qərarda guya Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirdiyinin əks olunduğunu iddia etdi, Ramil Səfərovun Azərbaycana ekstradisiyası və onun ölkəsində qəhrəman kimi qəbul olunmasından narazılığını bildirdi. Amma Paşinyan bilməlidir ki, beynəlxalq səviyyəli məhkəmənin qərarını təhrif etmək yolverilməzdir və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarında da Azərbaycana qarşı hər hansı bir ittiham irəli sürülməyib. Bu məhkəmənin qərarında irqçilik ittihamı əsasında Azərbaycanın hər hansı bir dövlət məsuliyyətinin də olduğu qeyd edilməyib. Qərarda baş vermiş hadisənin fərdi davranış əsasında törədildiyi qeyd olunub. Beləliklə, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarı əsasında Azərbaycanı irqçilikdə ittiham edən Paşinyan növbəti dəfə özünü yalan və saxtakarlıqda ifşa etdi.

Prezident İlham Əliyev çıxışında erməni terrorçusu Karapetyanla bağlı məsələyə toxundu. Dövlət başçısının haqqında danışdığı hadisə 1983-cü il iyulun 15-də Parisin Orli hava limanında baş vermişdi. ASALA terror təşkilatının üzvü Varujan Karapetyanın başçılığı altında həyata keçirilən, Türk Hava Yollarının kassası qarşısında törədilən qanlı terror aktında həlak olan 8 nəfərdən 2-si Türkiyə, 4-ü Fransa, 1-i ABŞ, 1-i isə İsveç vətəndaşı idi. Terror zamanı 55 nəfər də yaralanmışdı. Karapetyan istintaqa ifadəsində hadisəni törətdiyini boynuna alaraq, əslində, əsas məqsədin bombanı təyyarənin içində partlatmaq olduğunu etiraf etmişdi. Törətdiyi cinayətə görə Fransa məhkəməsi onu ömürlük həbs etsə də, 2001-ci ildə Karapetyan Ermənistana ekstradisiya olunur. Burada qəhrəman kimi qarşılanan terrorçu Ermənistanın ovaxtkı baş naziri Andranik Marqaryan tərəfindən qəbul edilir, mənzil və işlə təmin olunur. Bu, bir daha onu göstərir ki, qanlı terror törədən insanın Ermənistanda qəhrəmanlaşdırılması adi haldır. Bu, Ermənistanda terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini göstərən çoxsaylı faktlardan biridir.

Bütün bunlar bir daha sübut etdi ki, Paşinyan beynəlxalq səviyyəli tədbirdə Azərbaycan Prezidentinin tarixi həqiqətə əsaslanan tutarlı faktları qarşısında növbəti dəfə mat vəziyyətinə düşdü və özünü biabır etdi. Bu isə bütün hallarda istənilən bir hökumət başçısı üçün arzuolunan vəziyyət deyil.

Ən maraqlı və gülüş doğuran məqamlardan biri də tədbirə Paşinyanın qoruyucu maska ilə qatılması idi. Qeyd edək ki, Paşinyan bir müddət əvvəl koronavirusa yoluxduğunu elan etmiş, daha sonra da sağaldığını açıqlamışdı. Mütəxəssislər deyir ki, tibbi protokollara görə koronavirusa yoluxan və sağalan adam heç kimi yoluxdurmur. Çünki bədəndə anticisim formalaşır və belə olduqda maska taxılmasına ehtiyac yoxdur. Bu halda Paşinyanın maska taxmasına nə ehtiyac var idi, həm də kamera qarşısında?! Kadrlardan da göründüyü kimi, Paşinyandan başqa heç bir dövlət və hökumət başçısı maska taxmayıb. Çünki beynəlxalq tibbi standartlara görə əgər yaxınlığında kimsə yoxdursa maska taxmaq lazım deyil. Deməli, bu, Paşinyanın növbəti ucuz şousudur. Onun bundan məqsədi özünü xalqı qarşısında qurban kimi göstərmək və ictimaiyyətin diqqətini cəlb etməkdir.

**AZƏRTAC-ın materialları əsasında**

## "Beynəlxalq Ordu Oyunları - 2020"nin planlaşdırılması üzrə videokonfrans keçirilib




*İyunun 18-də Müdafiə Nazirliyinin nümayəndə heyəti "Beynəlxalq Ordu Oyunları - 2020" yarışlarının 3-cü planlaşdırma konfransında iştirak edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarışlarda iştirak edəcək ölkələrin nümayəndə heyətlərinin videoəlaqə vasitəsilə keçirilən onlayn konfransda beynəlxalq oyunların yarışlarının şərtləri və qaydaları və hazırlıq məsələləri müzakirə olunub.



"Beynəlxalq Ordu Oyunları - 2020" yarışlarının bu il avqustun 23-dən sentyabrın 5-dək keçirilməsi planlaşdırılır.

# Müdafiə naziri cəbhəboyu zonada yerləşən növbəti yeni hərbi hissənin açılışında iştirak edib



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar göstərişinə əsasən həyata keçirilən tədbirlər davam edir.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yerləşən növbəti yeni hərbi hissənin açılışında iştirak ediblər.

Müdafiə nazirinə məruzə olunub ki, hərbi hissədə inzibati və xidməti binalar inşa edilərək mühafizə və yanğın siqnalizasiyası, həmçinin daxili rabitə sistemləri quraşdırılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, binada konfrans zalı, arxiv və digər xidməti iş otaqları istifadəyə verilib, onlar lazımi mebel və avadanlıqlarla təchiz edilib.

Bildirilib ki, ərazidə zabitlər və əsgərlər üçün yataqxana binaları inşa olunub, mebel və inventarlarla təmin edilib. Yataqxana binaları iş, məişət, silah, eləcə də digər xidməti otaqlardan ibarətdir.

Hərbi hissənin ərazisində qarovul xidmətinin təşkili məqsədilə qarovul şəhərciyi və qarovul evi də inşa edilib.

Tibb məntəqəsi müasir tibbi avadanlıq, mebel və inventarlarla təmin edilib. Burada stomatoloq, fizioterapiya, prosedur və müalicə üçün digər otaqlar mövcuddur.

Şəxsi heyətin qidalanması üçün nəzərdə tutulan yeməkxana binası müasir standartlara cavab verən qazanlar, sobalar, soyuducular və digər məişət texnikası, müvafiq mebel və inventarla təchiz olunub. Yeməkxanada soyuducu kamera otaqlarından ibarət ərzaq anbarı var.

Hamam-camaşırxana-qazanxana kompleksi də müasir avadanlıqlarla təchiz edilib.

Hərbi hissənin inzibati və xidməti binalarının isti su ilə təchizatı üçün nəzərdə tutulan qazanxanada müasir tipli qazanlar və nasoslar, fasiləsiz elektrik enerjisi ilə təminatı üçün isə generator qurğusu və transformator quraşdırılıb.



Ərazidə su təmizləyici qurğu quraşdırılıb, içməli və yanğından mühafizə su anbarları, həmçinin yeraltı su nasosxanası tikilib.

Şəhərcik ərazisinə yaşıllıq zolağı salınıb, müxtəlif növ ağaclar, dekorativ kollar əkilib, ərazidaxili yollara asfalt salınıb.

Hərbi hissəyə yüksək gərginlikli elektrik, əsas su və təbii qaz xətləri çəkilib.

Əraziyə baxış keçirən Müdafiə naziri şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması məqsədilə komandanlığa müvafiq tapşırıqlar verib.

# “Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri” müsabiqəsi davam edir

*2020-ci il üçün hazırlıq planına əsasən, Azərbaycan Ordusunda "Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri" müsabiqəsinin ikinci mərhələsinə start verilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qoşun növləri, birlik, birləşmə, əlahiddə hərbi hissələrdə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində keçirilən müsabiqənin məqsədi hərbi qulluqçularla ideoloji işin düzgün aparılması qaydalarının öyrədilməsi, onların milli mənəvi dəyərlər və azərbaycançılıq ideyası ruhunda tərbiyə edilməsi, döyüş və mənəvi-psixoloji keyfiyyətlərinin təkmilləşdirilməsi, eləcə də hərbi intizamın daha da möhkəmləndirilməsi və qabaqcıl təcrübənin təbliğindən ibarətdir.

Müsabiqənin qalibləri xüsusi komissiya tərəfindən müəyyən ediləcək.

# Məktəblilərlə hərbi vətənpərvərlik mövzusunda onlayn tədbir keçirilib

26 İyun - Silahlı Qüvvələr Günü ərəfəsində məktəblilərlə videoəlaqə vasitəsilə hərbi vətənpərvərlik mövzusunda onlayn tədbir keçirilib.

"Ordun varsa, yurdun var!" adlı tədbirdə Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova, Xətai rayonu İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov, Xətai rayonu şəhid Ayaz Məhərrəmov adına 95 nömrəli orta məktəbin direktoru Elçin Abdullayev, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova, məktəblilər və başqaları iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, çıxış edənlər dünyanın inkişaf etmiş orduları ilə eyni sırada yer alan ordumuzun gücündən danışıblar. Vurğulanıb ki, Aprel döyüşlərində Lələtəpəyə, Bayraqtəpəyə sancılan üçrəngli bayrağımızı igid, mərd oğullarımız Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə tezliklə işğaldan azad edəcəyimiz torpaqlarımızda dalğalandıracaqlar.

Orduda qadınların xidmətləri də xüsusi qeyd edilib. Bildirilib ki, Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə xidmət edən yüzlərlə hərbi və mülki işlərdə çalışan xanımlarımızın əməyi daim yüksək qiymətləndirilir.

Məktəblilər də milli qəhrəmanlarımızın şücaətlərini özünə nümunə bildiklərini deyib, Vətəni onlar kimi sevəcəklərinə söz veriblər. Dövlətimizin, xalqımızın şəhidlərə verdiyi dəyərdən danışan şagirdlər ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan Ayaz Məhərrəmov adına məktəbdə oxuduqlarına görə fəxr etdiklərini bildiriblər.

Sonda mövzuya dair ədəbi-bədii onlayn kompozisiya təqdim edilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***17 iyun 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***18 iyun 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Goranboy və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***19 iyun 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun işğal altında olan Qaraxanbəyli kəndi yaxınlığında, həmçinin Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU

# Heydər Əliyev adına Hərbi Liseyin 20-ci buraxılış mərasimi keçirilib

*İyunun 17-də Heydər Əliyev adına Hərbi Liseyin 20-ci buraxılışı münasibəti ilə tədbir keçirilib.*




Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tədbirdə iştirak edib.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə mərasimə hazırlıq barədə raport verib.

Ali Məclisin sədri kursantları salamlayıb.

Kursantlar orkestrin müşayiəti ilə Dövlət himnini ifa ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Heydər Əliyev adına Hərbi Liseyin 20-ci buraxılışı münasibətilə liseyin kursant, zabit və müəllimlərini, tədbir iştirakçılarını təbrik edərək deyib: "Azərbaycanda ordu quruculuğunun əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ötən əsrin 70-ci illərində hərbçi kadrların hazırlanması ilə başlanan bu proses dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işlədiyi dövrdə ilk milli ordu qurumunun yaradılması, ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə Silahlı Qüvvələrin formalaşdırılması ilə davam etdirilib. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq Ulu Öndərin Sərəncamı ilə 1998-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı, ölkə Prezidentinin Sərəncamı ilə 2004-cü ildə filialın əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılıb."



Ali Məclisin sədri deyib: "Heydər Əliyev adına Hərbi Lisey Azərbaycanda ixtisaslı hərbçi kadrların hazırlanması işinə mühüm töhfə verir. 56 kursantla fəaliyyətə başlayan liseydə hazırda 314 kursant təhsil alır və bu gün 20-ci buraxılış mərasimi keçirilir. Ötən dövrdə Hərbi liseyi 3300-dən artıq kursant bitirərək ali hərbi məktəblərə qəbul olmuşdur. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində liseyin 2 minə yaxın məzunu zabit kimi xidmət edir. Bu gün Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının timsalında sağlam, vətənpərvər və əqidəli gəncliyimizi, etibarlı gələcəyimizi görür və bununla fəxr edirik!"

Ali Məclisin sədri kursantlara müraciətlə deyib: "O ordu qüdrətlidir ki, onun sıralarında peşəkar və sağlam mənəviyyata malik olan vətənpərvər zabitlər xidmət edir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, "Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir zabit vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır". Məzun olan hər bir kursant gələcək təhsil və xidmət dövründə Ümummilli Liderimizin tövsiyələrini əsas götürməli, Vətənimizə, dövlətimizə və xalqımıza sədaqətlə xidmət etməlidir. Qarşınızda bir əsas vəzifə durur: o da təhsil aldığınız liseyin adına layiq peşəkar hərbi qulluqçu kimi yetişməkdir. Liseyin məzunları bundan sonra da təhsili və nizam-intizamı ilə seçilməli, hərb sənətinə dərindən yiyələnməli, mütaliə etməli, yeni texnologiyaları, müasir silahları, hərbi texnikanı mükəmməl mənimsəməli, dünyagörüşlərini daim artırmalıdırlar. Zabit adını daşımaq böyük məsuliyyətdir. Peşə vərdişi, fiziki və nəzəri hazırlığı ilə bərabər zabit həm də mənəvi keyfiyyətləri ilə seçilməlidir. Tariximizi, dəyərlərimizi və qəhrəmanlıq ənənələrimizi yaxşı öyrənməli, rəhbərlik etdiyi şəxsi heyətin bu əsasda mənəvi - psixoloji hazırlığına nail olmalıdır."

Ali Məclisin sədri deyib: "Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ordu quruculuğu sahəsində görülən işlər Silahlı Qüvvələrimizi yeni inkişaf mərhələsinə yüksəltməklə yanaşı, həm də dövlət-xalq-ordu birliyini daha da möhkəmləndirir. Hərbi qulluqçuların xidməti və yaşayışı üçün hərtərəfli şərait yaradılır, infrastruktur yenilənir, maddi-texniki təminat gücləndirilir. Zabit peşəsini seçən hər bir gənc bilməlidir ki, o, təhsil illərində olduğu kimi, gələcək xidmət dövründə də daim dövlətin himayəsində olacaqdır. Çalışın sizə göstərilən bu etimadı layiqincə doğruldub peşəkar zabit kimi formalaşasınız."



Ali Məclisin sədri bir daha buraxılış münasibətilə kursantları təbrik edib, qarşıya qoyulan vəzifələrin icrasında, gələcək təhsildə və xidmətdə onlara uğurlar arzulayıb.

Heydər Əliyev adına Hərbi Liseyin rəisi general-mayor Məhəmməd Həsənov buraxılış mərasimində iştirakına görə Ali Məclisin sədrinə liseyin kollektivi adından minnətdarlıq edərək demişdir: "Ötən dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin diqqət və qayğısı ilə Hərbi lisey mühüm təşkilatlanma və inkişaf yolu keçib, nümunəvi hərbi tədris sistemi, möhkəm maddi-texniki baza yaradılıbdır. Görülən işlərin nəticəsidir ki, ixtisaslı hərbçi kadrların hazırlanması üçün bütün imkanlar var. Hərbi liseyə qəbul olunmaq üçün müraciət edənlərin sayı ilbəil artır. Liseydə muxtar respublika ilə yanaşı, ölkəmizin digər bölgələrindən olan gənclər də təhsil alırlar. Cari dərs ilində kursantların fiziki və mənəvi-psixoloji hazırlığı diqqətdə saxlanılmış, onlar il ərzində keçirilən beynəlxalq, ölkə və muxtar respublika səviyyəli idman yarışlarında iştirak edərək layiqli yerlər tutmuşlar. Məhəmməd Həsənov bundan sonra da göstərilən dövlət qayğısına əməli işləri ilə cavab verəcəklərinə söz vermişdir."



Heydər Əliyev adına Hərbi Liseyin məzunu Yusif Məmmədzadə çıxış edərək demişdir: "Bu gün kursantların həyatında əlamətdar gündür. Üç illik lisey həyatı bizim gələcəyin zabiti, Vətən müdafiəçisi kimi formalaşmağımızda mühüm rol oynamışdır. Göstərilən diqqət və qayğıya görə ölkə başçısına, Ali Məclisin sədrinə minnətdarlığımızı bildirir və əmin etmək istəyirik ki, Ulu Öndərimizin adını daşıyan Hərbi liseyin şərəfini daim uca tutacaq, qarşıdakı təhsil illərində də yüksək bilik və hərbi intizamımızla öndə gedəcəyik. Əmin edirik ki, "And yerimiz Vətən" bizim kimi oğulların çiynində daim yüksələcəkdir:

*Vətəndaş olmasa, boş şeydir Vətən*
*Beş günlük, on günlük güney qarıdır.*
*"Vətən" məfhumunun arxasındakı*
*Vətənin vüqarlı oğullarıdır.*

Sonra Ali Məclisin sədri əlaçı kursantlara attestatları təqdim etmiş, zabit, müəllim və kursantları mükafatlandırmışdır.

Kursant Tapdıq Abbasov təhsil ocağının rəmzi kötüyünə xatirə birkasını vurmuşdur.

Orkestrin müşayiəti ilə "Hərbi lisey marşı" ifa edilmiş, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçmişdir.

Ali Məclisin sədri ümummilli liderimiz Heydər Əliyevin Hərbi liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirmişdir.

Sonra Ali Məclisin sədri yeməkxanada olmuş, kursantların qidalanması ilə maraqlanmışdır.

Aşpaz Bəyim Bayramova minnətdarlıq edərək demişdir: "Liseydə kursantların qidalanması və sağlamlıqlarının qayğısına qalınır. Yaradılan şərait bizi də qürurlandırır. Çalışırıq ki, dövlətimizin göstərdiyi qayğıya öz işimizlə cavab verək. Kursantlarla fəxr edir və onlara övladımız kimi qayğı göstəririk".

Liseyin müəllimləri ilə görüşən Ali Məclisin sədri demişdir: Liseyin müəllimləri ölkəmizin gələcəyi olan layiqli vətəndaşlar hazırlayır. Çünki ordu hər bir ölkənin gələcəyi və müstəqilliyinin qarantıdır. Liseyin məzunları ali hərbi məktəblərdə təhsil aldıqdan sonra Azərbaycan Ordusunda xidmət edəcəklər. Liseydə aldıqları təhsil və tərbiyəni gələcək xidmət dövründə tətbiq edəcək, nümunə göstərəcəklər. Onların hər bir nailiyyəti həm də müəllimlərinin uğurudur. Azərbaycan Ordusunda zabit kimi xidmət edən Hərbi liseyin məzunlarının yalnız uğurlarının şahidi olmuşuq. Bütün bunlar da müəllim-zabit heyətinin birgə səyi və əməyinin nəticəsidir. Heydər Əliyev adına Hərbi Liseyin ötən dövründəki fəaliyyəti onu deməyə əsas verir ki, məktəbin uğurlu gələcəyi vardır."

Ali Məclisin sədri müəllimlərə təşəkkürünü bildirmiş və gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.

## Azərbaycan Ordusu - 102

# Ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir

**26 iyun** 1918-ci il tarixli fərmanla milli ordunun yaradılmasına başlanıldı. Hərbiyyə Nazirliyi təsis edildi. Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək səriştəlilik göstərdi, Qazaxda Azərbaycan sərhədini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdi.

Qısa müddət ərzində Hərbiyyə Nazirliyinin aparatı yaradıldı. Nazirliyin təşkili barədə hökumət qərarından iki həftə sonra, noyabrın 15-də ordunun ümumi qərargahının təsis edilməsi barədə S.Mehmandarovun müvafiq əmri imzalandı.

Əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuş Azərbaycan Ordusunun ənənələri müasir dövrdə də qorunub saxlanılır və inkişaf etdirilir. Bu isə ümummilli liderimiz Heydər Əliyevin ciddi səyləri nəticəsində mümkün olmuşdur. Əbədiyaşar Ali Baş Komandan Heydər Əliyevin rəhbərliyi altında ordunu nizami ordu kimi formalaşdırmağa yönəldilən işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan verdi, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı.

Azərbaycanda yaranmış siyasi vəziyyət, hakimiyyət boşluğu dövlətçiliyin itirilməsi təhlükəsini yaratmışdı. Xalq təkidlə böyük tarixi şəxsiyyət Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Məhz belə bir ağır böhranlı şəraitdə Azərbaycan xalqı Heydər Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi. Respublikamızda ordu quruculuğunda da mühüm tədbirlər həyata keçirildi. Yerli müdafiə batalyonları buraxıldı, orduda vahid komandanlıq yaradıldı; ordu nizami ordu kimi formalaşdı...

Silahlı Qüvvələrin döyüş hazırlığının səviyyəsi tək hərbi texnika ilə deyil, bu texnikanı idarə edə biləcək savadlı zabit korpusundan əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan Azərbaycanda beynəlxalq standartlara cavab verən hərbi təhsil sisteminin formalaşdırılması ordu quruculuğunda vacib və tarixi əhəmiyyətli bir mərhələ oldu. Dövlət başçısı Heydər Əliyev hərbi təhsil sistemini daha da inkişaf etdirildi.

Tarixi varislik ənənəsinə uyğun olaraq ulu öndər Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığı Fərmanla, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk Əlahiddə Azərbaycan Korpusunun yaradıldığı gün - iyunun 26-sı Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edildi.

Bu gün Azərbaycanda ordu quruculuğu prosesi uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu və milli təhlükəsizlik siyasətini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, hərbi hissələr ən müasir hərbi texnika ilə təchiz olunub, yüksək şəraitə malik hərbi şəhərciklər, döyüş poliqonları yaradılıb. Bütün bunların nəticəsidir ki, ordunun şəxsi heyəti yüksək döyüş ruhuna malikdir.



Hazırda Silahlı Qüvvələrimizin təhsil sistemində müasir standartlara uyğun yeni proqram tətbiq edilir ki, bu da yüksək hazırlığa malik zabit kadrlarının hazırlanmasına imkan verir. Xüsusi təyinatlı təhsil müəssisələrinin professor-müəllim heyəti Türkiyənin, ABŞ-ın, Litvanın, Pakistanın, İordaniyanın, eləcə də NATO-nun hərbi təhsil müəssisələrinin nümayəndələri ilə vaxtaşırı təcrübə mübadiləsində iştirak edir. Azərbaycan-NATO Birgə Təlim və Tədris Fəaliyyət Planına müvafiq olaraq, Silahlı Qüvvələrin xüsusi təyinatlı təhsil müəssisələrinin tədris proqramlarının təkmilləşdirilməsi məqsədi ilə Hərbi Akademiyada tədris proqramına yeni fənnlər daxil edilib.

Təlimlərdə hərbi hissələrin döyüş texnikalarının, müasir silahların tətbiqi imkanları öyrənilir, tapşırıqların daha operativ və səmərəli yerinə yetirilməsi, qərargahlar tərəfindən əməliyyatların hazırlanması, qarşılıqlı fəaliyyətin və təminatın təşkili səviyyəsi yoxlanılır.

Əminik ki, uğurlu inkişaf yolu keçən ordumuz Ali Baş Komandanın döyüş əmri ilə torpaqlarımızı işğaldan azad edəcəkdir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

**XX** əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Müstəqil dövlətin ordusu da yaradıldı. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarına əsasən ölkəmizdə ilk nizami hərbi hissə - Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Daha sonra AXC-nin Hərbiyyə Nazirliyi təsis edildi. General Səməd bəy Mehmandarov Hərbi nazir, general-leytenant Əlağa Şıxlinski nazir müavini təyin edildi. Qısa müddət ərzində ordumuz ölkəmizin müstəqilliyinin qorunması istiqamətində uğurlar qazandı. Bakı və ətraf qəzalar erməni-bolşevik işğalından xilas olundu. Ordumuzda Hüseynxan Naxçıvanski, İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Mirzə Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbib bəy Səlimov kimi istedadlı generallar xidmət edirdilər. Ancaq AXC-nin süqutu hərb sahəsində qarşıya qoyulan bütün planları puç etdi. Bolşeviklərin işğalından sonra AXC-nin bütün strukturlarının fəaliyyətinə son verildi.

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra dövlətin ordusu da yaradıldı. Hələ ümummilli lider Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olduğu dövrdə - 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin yaradılması, həmin məktəbi bitirən kursantların hərbi məktəblərə güzəştli şərtlərlə qəbul olunmasına nail oldu. Milli zabit kadrlarımızın hazırlanmasına başlandı. Ulu Öndərin diqqət və qayğısı nəticəsində yeni açılan məktəb dövrünün ən müasir hərbi təhsil müəssisəsinə çevrildi. Bu da ölkəmizdə hərbçi peşəsinin nüfuzunun artmasında müstəsna rol oynadı.





Azərbaycana rəhbərlik edən şəxslər Silahlı Qüvvələri formalaşdırıb nizami orduya çevirə bilmədilər. Bunun nəticəsində düşmən torpaqlarımızın 20 faizini zəbt etdi, 1 milyondan artıq vətəndaşımızı öz yurdlarından didərgin saldı, on minlərlə insanı məhv etdi. Ölkə daxilində hakimiyyətsizlik, qarışıqlıq və xaos, siyasi çəkişmələr, ordunun iflic vəziyyətində olması, ərazilərin işğalı, ölkənin parçalanması və müstəqilliyin itirilməsi təhlükəsi əhalidə ruh düşkünlüyü, vahimə və qorxu, dövlətə və orduya, sabahkı günə inamsızlıq hissləri yaratmışdı.

Xalqımız yaranmış vəziyyətdən çıxış yolunu ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışında gördü. 1993-cü ildə Ulu Öndərin hakimiyyətə qayıdışı vəziyyəti kökündən dəyişdi. Ölkəmizdə ordu quruculuğu sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə güclü təkan verdi, cəbhədə vəziyyətin müsbət istiqamətdə inkişafına şərait yarandı. Ordu sıralarında xidmət edən şəxsi heyətin döyüş qabiliyyətinin artırılması, mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi vətənpərvərlik ruhunun gücləndirilməsi kimi məsələlər daim diqqət mərkəzində saxlanıldı.

Bu gün Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında dünyanın ən güclü orduları sırasındadır. Ordumuzun gücü 2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin Günnüt zəfəri zamanı təsdiqləndi.

Bu qələbələr Böyük Qələbəylə tamamlanacaq!..

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

**M**üasir Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin, müasir ordumuz Cümhuriyyət ordusunun varisidir. Bu baxımdan Azərbaycan Ordusunun 102 yaşı tamam olur.

Müasir Azərbaycan Ordusunu nizami ordu kimi müasir Azərbaycanın dövlətçilik memarı ulu öndər Heydər Əliyev formalaşdırmışdır. Belə ki, xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan, vətəndaş müharibəsi təhlükəsini aradan qaldıran, separatçılığı ləğv edən dahi tarixi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində irimiqyaslı islahatlar başladı. Təlimlər şəxsi heyətin döyüş hazırlığının səviyyəsini, bu və ya digər tədbirlər, eləcə də Ali Baş Komandanın ön xətdə, səngərlərdə əsgər və zabitlərə məsləhətlər, tövsiyələr verməsi, xidmətdə fərqlənən hərbi qulluqçuları mükafatlandırması şəxsi heyətin mənəvi-psixoloji hazırlığının səviyyəsini yüksəltdi. Uğurlu Horadiz əməliyyatı da istər ordunun şəxsi heyətinin, istərsə də ictimaiyyətin qələbəyə inamını da artırdı...

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin siyasi kursunu digər sahələrdə olduğu kimi, ordu quruculuğunda da uğurla davam etdirir. Ordumuzun silahlanmasına ən müasir döyüş texnikaları, avadanlıq və qurğular daxil edilib. Genişmiqyaslı təlimlər ordunun şəxsi heyətinin döyüş hazırlığının artırılmasında, təkmilləşməsində müstəsna rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin, eləcə də Müdafiə Nazirliyi rəhbərliyinin ön xətdə əsgər və zabitlərə tövsiyələr verməsi də, əsgərlərin məişət şəraitinin yaxşılaşdırılması da mənəvi-psixoloji hazırlığın yüksəldilməsini təmin edir.

Dünyanın ən güclü orduları sırasında olan Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə - torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun III kurs tələbəsi**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir.**

**2. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır.**

**Mövzu:** Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır.

*Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir*

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ulu Öndərin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində dahi şəxsiyyət Heydər Əliyevin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması onun misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

Ümummilli lider Heydər Əliyevin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.

Xalqımızın Ümummilli Liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı dünya azərbaycanlılarının həmrəyliyinin mənəvi istinadına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində ümummilli lider Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi Vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz Vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz əbədiyaşar liderin fəaliyyətinin nəticəsidir.

Ulu Öndər öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır.

Ümummilli lider Heydər Əliyevin memarı olduğu Azərbaycanda "Azərbaycan 2020 - gələcəyə baxış" İnkişaf Konsepsiyası bizim gələcək planlarımızı əks etdirməklə yanaşı, bir daha sübuta yetirir ki, Heydər Əliyevin ölkəmizin sürəkli tərəqqisini bu gün də təmin edən irimiqyaslı proqramları xalqımızın sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşmasına xidmət göstərir.

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması və yeni Azərbaycanın qurulmasında Heydər Əliyevin ən yaxın silahdaşı olmuşdur.

Prezident İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin gerçəkləşdirilməsində, həmin sahədə müxtəlif layihələrin hazırlanmasında fəal iştirak etmiş, ölkəyə investisiya axınında mühüm rol oynamışdır. Onun ölkədə iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsində, xüsusilə neft-qaz yataqlarının birgə işlənməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında müqavilənin bağlanmasında və reallaşdırılmasında Azərbaycan Respublikasının dünyaya inteqrasiyasında mühüm xidmətləri vardır.

Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən Prezident İlham Əliyev həm də görkəmli partiya xadimidir. O, ölkənin aparıcı siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının (YAP) lideridir. 2000-ci ilin parlament seçkilərində YAP-ın seçki kampaniyasına İlham Əliyev başçılıq etmişdir. Məhz onun rəhbərliyi ilə YAP həmin seçkilərdə parlaq qələbə çalmış və Milli Məclisdə böyük əksəriyyət qazanmışdır.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü olmuş İlham Əliyevin AŞPA-dakı məqsədyönlü, qətiyyətli və cəsarətli çıxışları Azərbaycanın Avropa məkanında nüfuzunun daha da artmasına güclü təsir göstərmişdir. Məhz İlham Əliyevin yorulmaz fəaliyyəti, qətiyyətli çıxışları sayəsində erməni təcavüzkarları Avropa Şurasında ifşa olunmuş, Azərbaycanın ayrılmaz parçası olan Dağlıq Qarabağ haqqında, qondarma"Dağlıq Qarabağ problemi" barədə Qərb dünyasında obyektiv rəy formalaşmış, həmin münaqişəyə düzgün siyasi qiymət verilmiş, onun həlli yolunda mühüm addımlar atılmışdır. Avropa Şurasında Ermənistanın təcavüzkar, işğalçı dövlət kimi tanınmasında, erməni terrorçuluğunun beynəlxalq terrorizmin tərkib hissəsi olmasının sübuta yetirilməsində, nəzarətdən kənarda qalan Dağlıq Qarabağın narkotiklərin ötürücü məntəqəsinə və terror yuvasına çevrilməsinin Avropa və dünya ictimaiyyətinə çatdırılmasında İlham Əliyevin böyük xidmətləri var. Avropa Şurasındakı fəaliyyəti, AŞPA-dakı obyektiv və konstruktiv çıxışları ilə İlham Əliyev qərb siyasətçiləri arasında böyük hörmət və nüfuz qazanmışdır. O, AŞPA-nın vitse-spikeri və Büro üzvü seçilmişdir (2003, yanvar).

İlham Əliyev ulu öndər Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərmişdir və bu sahədə fəaliyyətini indi də uğurla davam etdirir. 1997-ci ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti təyin olunan İlham Əliyevin yorulmaz və gərgin əməyi sayəsində, qısa müddət ərzində, Azərbaycan idmanı dünya səviyyəsində tanıdılmışdır. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandığı parlaq uğurlar İlham Əliyevin başçılıq etdiyi idman hərəkatının, hər şeydən əvvəl, böyük siyasi qələbəsidir.

Hazırda Azərbaycanın beynəlxalq yarışlarda, idmanın müxtəlif sahələrində ön mövqelərə çıxması, Bakının dünya üzrə mühüm beynəlxalq yarışların keçirildiyi mərkəzə çevrilməsi Azərbaycanın şöhrətini daha da artırır, onun beynəlxalq nüfuzuna müsbət təsir göstərir. Bu, İlham Əliyevin gənclər siyasətinin ən böyük uğurlarından biridir.

Prezident İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı olmuş, AŞPA-da Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı və AŞPA-nın vitse-spikeri və Büro üzvü vəzifələrində səmərəli fəaliyyət göstərmişdir. Azərbaycan xalqı qarşısındakı xidmətləri nəzərə alınaraq Prezident İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri təyin olunmuşdur. O, 2003, 2008, 2013 və 2018-ci illərdə Prezident seçkilərində parlaq qələbə qazanaraq xalqın iradəsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi kursunu uğurla həyata keçirir, Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqət göstərir. O, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki roluna yüksək qiymət vermişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tariximizdə çox əlamətdar və önəmli hadisə idi. İlk dəfə müsəlman aləmində demokratik respublika yaranırdı, Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Ölkəmiz dünya birliyinə üzv olurdu. Bu, çox əlamətdar hadisə idi".

Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Heydər Əliyevin xarici siyasət kursunun həyata keçirilməsində, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılmaqdadır. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan İlham Əliyev müasir və çevik siyasətçi kimi dünyada böyük hörmət və nüfuz qazanmışdır. O, sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini bütün sahələrdə uğurla müdafiə edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində də rolu və nüfuzu getdikcə artır.

Azərbaycan ulu öndər Heydər Əliyevin çoxillik gərgin və uzaqgörən fəaliyyətinin məhsuludur. Məhz onun yaratdığı siyasi, iqtisadi, mədəni və informasiya məkanında ölkə XXI əsrə qədəm qoyub və öz milli dövlətçiliyini inkişaf etdirir. Bu gün Azərbaycana ümummilli lider Heydər Əliyev yolunun layiqli davamçısı Prezident İlham Əliyev başçılıq edir. Ümummilli Liderin siyasəti Azərbaycanda daim yaşayır və qalib gəlir. Azərbaycan xalqının iradəsini ifadə edən Prezident İlham Əliyev yenidən 11 aprel 2018-ci il tarixində keçirilən prezident seçkilərində növbəti dəfə 7 il müddətinə müstəqil Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə 86 faiz səs çoxluğu ilə seçildi.

Azərbaycan Respublikası Prezidentinin hələ 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, Azərbaycan Ordusunun hərbi kadr hazırlığı sistemini təkmilləşdirmək və ordunun peşəkar zabit kadrlarına olan tələbatının ödənilməsi işini yaxşılaşdırmaq məqsədilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında Heydər Əliyev adına yeni Hərbi Lisey yaradılmışdır.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərləri ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biridir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

Azərbaycan Ordusunun gücünü, kadrların hərbi peşəkarlığını daim artırır, hərbi qüdrətini yüksəldir. NATO ilə sıx və səmərəli əməkdaşlığın əsas hədəfi də məhz ordu quruculuğu prosesini sürətlə təkmilləşdirmək və müasir standartlara uyğunlaşdırmaqdır. Yekun məqsəd, başlıca niyyət isə, heç şübhəsiz, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməkdir.

Ordu quruculuğunu daim diqqət mərkəzində saxlayacağını bəyan edən cənab Ali Baş Komandan Azərbaycan Ordusunun qarşısında hər an torpaqlarımızı azad etmək üçün hazır olmaq vəzifəsini qoyaraq demişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin həllini sülh yolu ilə istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir". Bu gün şanlı ordumuzun gücünü göstərən qələbəyə görə işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycan bayrağı dalğalanır. Aprel döyüşləri və Naxçıvan əməliyyatında əldə etdiyimiz uğurlar və ordumuzun təmas xəttindəki üstünlüyü bunun bariz nümunəsidir. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından bu döyüşlər bir daha göstərdi ki, Azərbaycan Ordusu istənilən döyüş tapşırığını yerinə yetirməyə və ərazi bütövlüyümüzü bərpa etməyə qadirdir.

Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yürütdüyü məqsəyönlü siyasət nəticəsində xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur və möhkəmlənir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Müdafiə Nazirliyinin nümayəndə heyəti Milli Qəhrəman Mübariz İbrahimovun məzarını ziyarət edib



*Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun torpaqlarımızın müdafiəsi uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksəlməsinin ildönümündə Müdafiə Nazirliyinin nümayəndə heyəti qəhrəmanın məzarını ziyarət edib, üzərinə gül dəstələri düzüblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, anma mərasimində Azərbaycanın tarixən öz qəhrəmanları ilə seçildiyini deyən polkovnik Elvin Əzizov Mübariz İbrahimovun da qanında-canında qəhrəmanlıq və mübarizlik hissinin yüksək olduğunu vurğulayıb. Zabit Milli Qəhrəmanın şərəfli həyat yolundan, onun göstərdiyi şücaət və qəhrəmanlıqdan danışıb. Qeyd olunub ki, qəhrəmanımız qısa ömür yaşasa da, canını Vətən yolunda fəda etməsi ilə gənclərə örnək olacaq şanlı bir yol qoyub gedib.



Digər çıxış edənlər də şücaəti ilə ömrünün gənclik çağında tarixə və gənc nəslin qəlbinə adını yazan qəhrəmanın ölməzlik qazandığı, ölçüyəgəlməz Vətən sevgisinin onu şəhidlik zirvəsinə ucaltdığını vurğulayıblar. Xüsusi qeyd olunub ki, igidimizin göstərdiyi rəşadət dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib.

Mərasimdə Vətənimizin azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin xatirələri yad edilib, məzarları üzərinə tər güllər düzülüb.

---

*Səriştəsizliyə, siyasi ambisiyalara, separatçılığa görə Azərbaycanda siyasi vəziyyət vətəndaş müharibəsi həddində idi. Onda xalq ciddi təkidlə, dönməz inamla, dünyəvi ehtiramla böyük tarixi şəxsiyyət Heydər Əliyevi hakimiyyətə çağırdı. Ulu Öndər xalqın çağırışıyla hakimiyyətə qayıtdı. Bu qayıdışla separatçılığın qarşısı alındı, dövlətə, dövlətçiliyə deyil, fərdlərin siyasi mənafeyinə xidmət edən silahlı birləşmələrin fəaliyyəti məhdudlaşdırıldı, başlama ərəfəsində olan vətəndaş müharibəsi aradan qaldırıldı - Azərbaycanın dövlətçiliyi xilas edildi...*

*Ovqat*

# Böyük Qələbənin paradı möhtəşəm olacaq!

1993-cü il noyabrın 2-də ulu öndər Heydər Əliyevin radio və televiziya ilə xalqa müraciət etməsi, bu müraciətin xalqı azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşdirməsi ordu ilə xalqın birliyini təmin etdi. Xalqın orduya inamı, ordunun xalqa güvənci artdı. Bu amil ordu quruculuğunun uğurla aparılmasında əlavə stimul oldu.

Uğurlu Horadiz əməliyyatından sonra Ermənistan rəhbərliyi atəşkəs imzalamağa məcbur oldu. Yaranmış vəziyyət ordu quruculuğunu daha dinamik, elmi-hərbi istiqamətdə davam etdirməyə şərait yaratmışdı. Ulu Öndərin dövlətçilik təcrübəsi, siyasi, siyasi-hərbi səriştəsi, orduda irimiqyaslı islahatlar Azərbaycan Ordusunun nizami ordu kimi formalaşmasının başlanğıcı oldu.

Yerli müdafiə batalyonlarının buraxılması, orduda vahid komandanlığın təmin edilməsi ilə davam etdirilən ordu quruculuğunun uğurlarına əlavə imkanlar yaratdı.

Əbədiyaşar Ali Baş Komandan Heydər Əliyev nizami ordu səviyyəsində formalaşdırdığı ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi məqsədilə dəfələrlə ön xətdə, səngərlərdə əsgər və zabitlərə dəyərli tövsiyələr verdi, nümunəvi xidmətiylə fərqlənənləri mükafatlandırdı. Bununla da özlüyündə mənəvi-psixoloji hazırlığın səviyyəsinin yüksəldilməsində gərəkli əlavə stimul oldu...



Azərbaycan Ordusunun maddi-texniki bazasının möhkəmləndirilməsi, silahlanmaya ən müasir silahların daxil edilməsi, hərbi hissələrin təminatının yüksəldilməsi, müxtəlif miqyaslı təlimlərlə şəxsi heyətin döyüş hazırlığının artırılması ordu quruculuğu prosesinin dönməzliyini təmin etdi.

Azərbaycanda hərbi təhsil sisteminin yüksək səviyyədə olmasını dünya dövlətlərinin mütəxəssisləri də təqdir edir. Bunun nəticəsidir ki, MDB-yə üzv olan bir neçə dövlət ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən imzalanmış sazişlərə əsasən bu ölkələrin hərbi qulluqçuları Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alırlar. Azərbaycanın ali hərbi məktəblərinin madditexniki bazaları dünya standartlarına, bu baxımdan NATO standartlarına uyğun olmasaydı, tərəfdaş dövlətlər gələcək hərbi qulluqçularının Azərbaycanda hərbi təhsil almasını istəməzdi.

Ötən illər ərzində Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələri xeyli genişlənmiş və keyfiyyətcə yeni mərhələyə daxil olmuşdur. 1994-cü il mayın 4-də Azərbaycan Respublikasının NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulması, hər il Azərbaycan Respublikası ilə NATO arasında fərdi əlaqələndirmə proqramının hazırlanması, proqrama əsasən Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələrinin NATO-nun hərbi məktəblərində, kolleclərində və başqa strukturlarında keçirilən sülhməramlı kurslarda, Avropa təhlükəsizlik sahəsində əməkdaşlıq, adi silahlara nəzarət, böhran vəziyyətini idarəetmə, ətraf mühitin mühafizəsi, inteqrasiya proseslərinin genişləndirilməsi və digər tədbirlərdə iştirakı bu qəbildəndir...

Azərbaycanda ordu quruculuğu dövlət üçün prioritetdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin azərbaycançılıq ideologiyasını, ümumən siyasi kursunu ordu quruculuğu sahəsində də uğurla davam etdirir. İndi Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır.

Azərbaycan Ordusu dinamik inkişafdadır. 2016-cı ilin aprel döyüşləri, 2018-ci ilin Günnüt əməliyyatı Azərbaycan Ordusunun qadirliyini göstərdi, Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paradlar Azərbaycan Ordusunun qüdrətinin göstəricisi kimi izlənildi. Ordunun şəxsi heyəti də, ictimaiyyət də əmindir ki, ən möhtəşəm hərbi parad Böyük Qələbənin paradı olacaq!

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

---

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş ərazilərimizdə yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin 6-cı dağ atıcı alayının 2 hərbi qulluqçusu hərbi hissəni özbaşına tərk edib.

Belə ki, kəşfiyyat bölüyünün əsgəri Tiqran Ohancanyan və mühəndis bölüyündə xidmət keçən Arman Qasparyan hərbi hissədəki dözülməz şəraitə etiraz olaraq xidmət yerindən qaçıblar. Hərbi polis və yerli hüquq-mühafizə orqanları fərarilik edən əsgərlərin tapılaraq geri qaytarılması məqsədilə müvafiq tədbirlər görür.

Cinayət işi açılıb, hadisənin səbəbləri araşdırılır.

* * *

Ermənistan tərəfindən işğal edilmiş Madagiz yaşayış məntəqəsində yerləşən hərbi hissədə xidmət edən gənc əsgər xidmət yoldaşları tərəfindən vəhşicəsinə döyülüb.

Təlim taborunda xidmət edən əsgər Nikolay Koçaryan müxtəlif dərəcəli bədən xəsarətləri ilə əvvəlcə tibb məntəqəsinə aparılıb. N.Koçaryanın vəziyyətinin ağır olduğunu görən hərbi hissənin həkimi onun təcili hospitala yerləşdirilməsinə göndəriş verib.

Hərbi polis faktla bağlı araşdırma aparır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmət edən əsgər əsəb gərginliyi, depressiya və stress səbəbindən psixi xəstəlik tapıb.

İşğalçı ordunun Cəbrayılda yerləşən hərbi hissəsində qulluq edən əsgər Davit Qasparyan xidmət yoldaşlarının "zarafatı" nəticəsində psixi xəstəliyə düçar olub. Belə ki, əsgər D.Qasparyan döyüş növbəsində olarkən manqa yoldaşları onun postuna "düşmən hücumunu" təqlid ediblər. Təşviş və qorxudan stress keçirən əsgər hazırda hospitalın psixiatriya bölməsində müalicə alır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində baş verən nizamnamədənkənar münasibətlər zəminində törədilən növbəti cinayət faktı ortaya çıxıb. Bu dəfə gənc əsgər döyülüb.

Düşmən ordusunun Madagizdə yerləşdirilən bölmələrindən birində xidmət edən Davit Muşeqyan xidmət yoldaşları tərəfindən vəhşicəsinə döyülüb. Komandirləri tərəfindən şikayət etməməyə məcbur edilən əsgər taborun tibb məntəqəsinə yerləşdirilib.

* * *

İşğal edilmiş ərazilərimizdə yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində növbəti "dedovşina" faktı üzə çıxıb.

6-cı dağ atıcı alayın hərbi qulluqçusu Vazgen Manukyan xidmət yoldaşları tərəfindən döyülüb. Tibb məntəqəsində ilkin yardım göstərildikdən sonra V.Manukyan xidmət yerinə qaytarılıb.

Faktla bağlı hüquq-mühafizə orqanlarına məlumat verilmədən hadisə ört-basdır edilib.

* * *

Ermənistan tərəfindən işğal edilmiş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən düşmən ordusunun hərbi hissəsinin 3-cü taborun 5-ci bölüyündə xidmət edən zabit dələduzluğa görə həbs edilib.

Harut Ağayan müxtəlif bəhanələrlə əsgər valideynlərindən külli miqdarda pul alıb. Bu rüşvətin müqabilində övladları üçün heç nə etməyən zabit barədə əsgər valideynləri hərbi prokurorluğa şikayət ediblər.

Daxil olan məktublar əsasında H.Ağayan istintaqa cəlb olunub və faktla bağlı hərbi polis tərəfindən araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

## Qarabağı vermərəm!

Bütün aləm danışır
mənim səxavətimdən,
Dostlara pay verəndə
bahasını verərəm.
Qonağa süfrə açıb
öz halal nemətimdən,
Evimin ipəyini,
xarasını verərəm.
Lazım gəlsə yolunda
keçib, can sərvətimdən
Çıxarıb ürəyimin
parasını verərəm.
Kimlər ki, şəfqət tapır
öz ana təbiətimdən
Dərman kimi dağların
havasını verərəm.
Fəqət dağı vermərəm,
Mən heç zaman dönmərəm.
Fikrimdən, niyyətimdən,
lazım gəlsə, gözümün
Qarasını verərəm,
Qarabağı vermərəm!
Əgər yer-göy dağılıb,
dönsə baharım qışa
Parça-parça doğranıb,
yem olsam da qurd-quşa
Allah da göydən enib,
başlasa yalvarışa
Qara keşiş yumşalıb,
Kərəm ilə barışa
Göyçə gölü birləşib,
Göy-gölümlə qarışa
Yüz-yüz çaya Turşsutək
bir bulağı vermərəm
Mən canımı verərəm
Qarabağı vermərəm!
Bu necə qonşuluqdu,
üzük mənim qaş onun?
Mən öz başımdan keçim
çiynimdəki baş onun?
Torpağımdan pay verim
olsun könlü xoş onun?
Bu Qarabağ nə vaxtdan
məskəni olmuş onun?
Əli sınsın tarixi
belə düzüb, qoşanın.
Gözüm yoxdur üstündə
bircə qara daşının
Ağ dumanlar gəlinlik
duvağıdır Şuşanın.
Mən gəlinin üzündən
o duvağı vermərəm.
Namusum, ismətimdir
Qarabağı vermərəm!
Bu nə oyundu? - deyib
Vaqif qalxar məzardan,
Məqbərəsi od tutub
əriyər intizardan.
Lənət daşı yağdırar
Xan qızı daş hasardan.
Görən Üzeyir bəyə
çatıbdır bu səs hardan,
Qarabağın çənidir
tunc heykəli bozardan.
Nərə çəkir Koroğlu
cəngi çalır saz hardan.
Qıratdımı şığıyan
göyə qalxır toz hardan?
Çıxıb cıdır düzünə Nigar,
Xan Eyvaz hardan.
Kür burdan hay qoparır
kükrəyir Araz ordan.
Vətən satlıq mal deyil
əl çəkin bu bazardan.
Millətçilik deyilən
ən dəhşətli azardan.
Millət xilas olmasa
qurtarmaz ahu-zardan
Torpağıma girişən
Qarabağa gor eşən
Hər növ mərdi-məzardan,
cana doyub deyirəm
Əlin qopmasa ordan
köynəyim bayraq olub,
Seçilməz lalәzardan,
mən əsgərəm əlimdən
O bayrağı vermərəm,
öz canımı verərəm,
Qarabağı vermərəm!

## *Könlüm şeir istəyir*

# Azərbaycan deyəndə...



*Tofiq Bayramın şeirləri vətəndaşlığın söz kürsüsüdü. Vətənə sədaqət, dağların ucalığına, dərələrin dərinliyinə, çeşmələri duruluğuna, bulaqların zümzüməsinə, ağacların xırman kölgəsinə vurğunluğun poeziyasıdır. "Qarabağı vermərəm!" şeir biçimli çaxan şimşəkdi, həm də xalqın adından yazılmış şeir kimi oxunur.*

*Şairin ruhumuzun poetik ehtiyacı kimi oxuduğumuz şeirləri səmimidir, səmimiyyətlə oxunur, səmimiyyətlə düşündürür...*

**"Azərbaycan Ordusu"**

## Azərbaycan deyəndə!

Vətən mənim bu günüm,
Sabahkı toy-düyünüm.
Haqqım var ki, öyünüm
Azərbaycan deyəndə!
Ürəklərdə döyünüm
Azərbaycan deyəndə!

Hər ölkəyə, hər elə
Olsun hörmət deyirəm.
Vətənimdir Vətənim
İlk məhəbbət deyirəm.
Onun şöhrət tacıdır
Şeir-sənət deyirəm.
Mən Vətənə Füzuli,
Abbas Səhhət deyirəm.
Mən Vətənə Sabiri
Doğan qeyrət deyirəm.
Mən Vətənə Üzeyir,
Müşfiq, Səməd deyirəm,
Günəş kimi müqəddəs
Bir həqiqət deyirəm
Azərbaycan deyəndə!
Dünya məni dinləsin:
- Diqqət! Diqqət!
deyirəm
Azərbaycan deyəndə!
Azərbaycan deyəndə

Ləpələr şairləşir.
Anaların bətnində
Qara gözlü körpələr
Pələngləşir, şirləşir.
Azərbaycan deyəndə!

Müdrik qocalar kimi
Dağlar da fikirləşir.
Azərbaycan deyəndə!
Haralısan? - Sualı
Verənlərə ar olur.
Qeyrətlilər birləşir,
Qeyrətsizlər xar olur
Azərbaycan deyəndə!

Dostdan sovqat, muştuluq,
Düşməndən bac alaram
Azərbaycan deyəndə!
İşıq sütunu kimi
Sabaha ucalıram
Azərbaycan deyəndə!
Körpüləri, sədləri
Sinəmlə parçalaram.
Sərhəd məftillərində
Bu kobud əllərimlə,
Bir muğamat çalaram
Azərbaycan deyəndə!

Azərbaycan! - Bu nida
Qayaları silkələr.
Sal daşların köksündə
Çiçək bitər, gül gələr.
Azərbaycan deyəndə!
Təbim coşar, sel gələr.
Sanma, şöhrət pərdəsi
Ürəyimi kölgələr
Azərbaycan deyəndə!
Gözümdə doğmalaşar
Bütün xalqlar, ölkələr
Azərbaycan deyəndə!

## Qarabağ nəğməsi

Ay Qarabağ, sən qüvvətsən dizlərimə,
Qaytar məni gənc yaşıma, qurban olum!
Qocalmışam, sən işıq ver gözlərimə,
Gəlim sənin tamaşana, qurban olum!

Yad gözlərə Şuşa batır şüşə kimi,
Dayanmışıq dövrəndə sıx meşə kimi,
Sənsən ana təbiətin baş həkimi,
Can məlhəmli hər daşına qurban olum!

Sən Vaqifin keşməkeşli həyatısan,
İlhamının, ürəyinin sovqatısan;
Başdan-başa nərmə-nazik bayatısan,
O dahiyə, söz qoşana qurban olum!

Qəlbimdəsən bir müqəddəs inam kimi,
Eşqin ilə sinəm yanır bir şam kimi.
Qollarını aç mənə öz anam kimi,
Qoy atılım ağuşuna, qurban olum!

Bir vaxt sənə yadlar atdı kəməndini,
Fürsət tapıb işə saldı öz fəndini.
Bir gədaya dəyişdilər Xankəndini,
Onun qədim naxışına qurban olum!

Kəbəsisən nənəmiz ağbirçəklərin,
Bir gözəllik sərgisisən göyçəklərin,
Bulaq üstə yeriyən şux çiçəklərin
O ilahi baxışına qurban olum.

Soyut təşnə ürəyimin yanğısını,
Sən güləndə qış yaz olur, can qızınır.
Qoyma ağır intizarda Xan qızını,
Qərq olmasın göz yaşına, qurban olum.

Sən bizimsən! - xalqdır edən bu tələbi,
Milyonların qeyzə gəlib, coşur təbi.
Gözün aydın! - Qoç Koroğlu, Qaçaq Nəbi
Sərkərdədir, bu qoşuna qurban olum!

Fitnə qurub, yalan, böhtan deyənlərə,
Dünya gəlir, qalib gəlir xeyir şərə.
Sar sındırıb qanadını, düşür yerə,
Qartal qalxır dağ başına, qurban olum.

Ana yurdun ən istəkli balasısan,
Torpağında həmişəlik qalasısan.
Bir alınmaz namus, qeyrət qalasısan,
Sənin hər bir qarışına qurban olum!

# Xəbərlər: hadisələr, faktlar

## Moskvada keçiriləcək Qələbə paradında iştirak etmək üçün 12 ölkədən hərbçilər gəliblər



Keçmiş sovet respublikaları, o cümlədən Azərbaycan, eləcə də Serbiya, Monqolustan və Çin hərbçiləri Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə təşkil olunacaq paradda iştirak etmək üçün Moskvaya gəliblər.

Bu barədə jurnalistlərə Rusiya Quru Qoşunlarının komandanı, ordu generalı Oleq Salyukov məlumat verib. O bildirib ki, 12 ölkədən gəlmiş hərbçilər Moskva ətrafındakı "Alabino" poliqonunda parada hazırlıq keçiblər.

Qələbə paradı iyunun 24-də Moskva vaxtı ilə saat 10:00-da başlayacaq. Bütövlükdə Rusiyanın müxtəlif şəhərlərində keçiriləcək hərbi paradda 64 mindən çox hərbçi, 2,4 min hərbi texnika, 20 sualtı, suüstü və hərbi gəminin iştirak edəcəyi gözlənilir. Təyyarələr və helikopterlər Moskvanın Qızıl meydanı üzərindən uçmaq üçün 8 aerodromdan havaya qalxacaqlar.

## Gürcüstan silahlı qüvvələrinin bütün bölmələri M4 avtomat silahı ilə təmin olunacaq



Gürcüstan silahlı qüvvələrinin bütün bölmələrində yeni növ M4 avtomat silahından istifadə olunacaq.

Bu sözləri Gürcüstanın Müdafiə naziri İrakli Qaribaşvili parlamentdəki çıxışı zamanı söyləyib. Nazir deyib ki, ölkənin bəzi qüvvələrində M4 avtomat silahından istifadə olunur. Gürcüstan bu avtomatları silahlanmaya daxil edib və bütün bölmələrdə M4 silahları istifadə ediləcək.

Qeyd edək ki, M4 avtomatik karabini ABŞ-ın "M16A2" modeli əsasında hazırlanıb. Bu silahdan təkcə müdafiədə deyil, hücum əməliyyatlarında da geniş istifadə olunur.

Silahların alınması ABŞ hökumətinin Gürcüstan Silahlı Qüvvələrinin dünyada sülhün qorunması və təhlükəsizliyin bərpasında iştirakına kömək məqsədilə ayırdığı 22 milyon dollarlıq vəsait hesabına alınıb.

## İran yeni raketini sınaqdan keçirib



İranın Hərbi Dəniz Qüvvələri uzaq hədəfləri vurmaq üçün nəzərdə tutulan raketi uğurla sınaqdan keçirib.

Bu barədə İranın Müdafiə Nazirliyinin açıqlamasında deyilir.

Qeyd olunub ki, Hind okeanı və Oman körfəzində keçirilən hərbi təlimlər zamanı sınaqdan keçirilən yeni raketlə 280 kilometr məsafədəki hədəf dəqiqliklə vurularaq məhv edilib.

İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Məhəmməd Baqeri parlamentin qapalı iclasında çıxış edərək ölkənin hərbi büdcəsinin artırılmasını istəyib. O bildirib ki, bölgədəki hərbi-siyasi vəziyyət nəzərə alınaraq hərbi büdcəyə əlavə vəsait ayırmaq lazımdır.

## İnterpol vasitəsilə axtarışa verilən terrorçu Türkiyədə ələ keçirilib



İnterpolun ən təhlükəli terrorçular siyahısında axtarışa verilən daha bir terrorçu Türkiyədə ələ keçirilib.

İzmirin Bornova rayonunda saxlanılan terrorçunun "DHKP-C" terror təşkilatının maliyyə işlərini idarə etdiyi müəyyənləşib. O, Türkiyə Daxili İşlər Nazirliyi tərəfindən tərtib olunan siyahıda qırmızı bülletenlə axtarışda olub. Onun ələ keçirilməsi üçün böyük məbləğdə pul mükafatı nəzərdə tutulmuşdu.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 396
Nüsxə 3960